| | Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Ətraf Mühitin Mühafizəsi Siyasəti | Sənəd № : GTX-HS-SP01-01 |
|---|---|---|

**"GİLTEX" MMC** üçün əsas prioritet - işçiləri, podratçıları, müştəriləri və cəmiyyət üzvlərini xəsarət, itki və ya zərər riskindən qorumaqla əməliyyatların ətraf mühitə ziyan vurmadan və təhlükəsiz yerinə yetirilməsidir.

**"GİLTEX" MMC**-nin rəhbərliyi aşağıda göstərilən bütün öhdəlikləri öz vəzifə və məsuliyyətlərinin bir hissəsi hesab edir və onlara nail olmaq üçün SƏTƏMM üzrə məqsəd və hədəflər hazırlayıb həyata keçirməkdədir.

- Öz işçilərinin, qonaqların, podratçıların və öz fəaliyyətləri zamanı təsirə məruz qala biləcək ictimaiyyət üzvlərinin sağlamlığını, təhlükəsizliyini təmin etmək vəzifələrini başa düşür və bu istiqamətdə bütün zəruri addımları atmaqda davam edəcəkdir
- ISO 45001:2018 və ISO 14001:2015 beynəlxalq idarəetmə sistemlərini tətbiq edərək SƏTƏMM idarəetmə sistemlərinin performansını davamlı inkişaf etdirmək üçün tədbirlər planı həyata keçirəcək
- SƏTƏMM sahəsində bütün müvafiq qanunvericiliyə, qaydalara, təcrübələrə və bütün digər müvafiq tələblərə uyğunluğu təmin edəcək
- Cəmiyyət ərazisində və cəmiyyətin fəaliyyəti ilə bağlı bütün sahələrdə olan təhlükələrin aradan qaldırılması və peşə sağlamlığı ilə bağlı risklərin minimuma endirilməsini təşkil edəcək;
- "Qəzasız Fəaliyyət"ə nail olmaq üçün davamlı sağlamlıq və təhlükəsizlik mədəniyyətini formalaşdırmaq üçün bütün müvafiq tədbirləri həyata keçirəcək;
- İşlə əlaqəli xəsarətlərin və sağlamlığın pozulması hallarının qarşısının alınması üçün təhlükəsiz və sağlam iş şəraitinin təşkilini həyata keçirəcək;
- Ətraf mühitin çirklənməsinin qarşısının alınması və ətraf mühitə mənfi təsirləri minimuma endirilməsi üçün bütün müvafiq tədbirləri həyata keçirəcəkdir;
- Risklərin qiymətləndirilməsi və ətraf mühit aspektlərinə uyğun olaraq bütün növ əməliyyatlar üçün müvafiq prosedur və təlimatlarla təmin edəcək;
- Tullantıların ətraf mühitə atılmasının qarşısının alınması, zərərsizləşdirilməsi, utilizasiyası üzrə tədbirləri həyata keçirəcək, habelə ekoloji cəhətdən müsbət vizyona sahib təqdim etdiyi məhsul və ya xidmətin zəruri lisenziya və sertifikatları olan tədarükçülərlə əməkdaşlığın qurulmasına üstünlük veriləcək;
- Bütün işçilərin, podratçıların və digər tərəflərin müvafiq təhlükə və riskləri daha yaxşı başa düşməsi və onlara nəzarət edə bilməsi üçün bütün lazımi təlimləri almasını təmin edəcəkdir
- Bütün işçi heyətini, podratçıları, ziyarətçiləri və digər bütün müvafiq heyəti, cəmiyyətin bütün tələblərinə və təlimatlarına riayət etməyi və baş verən hər hansı bir hadisə, qəza və xəsarətlər barədə dərhal məlumat verilməsini tələb edir.

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyət GILTEX Limited Liability Company Azerbaijan Republic

İcraçı Direktor ____________ Kamran Aqasi

Müşhaidə Şurasının Sədri ____________ Kəmalə Nuriyeva

Tarix "16" iyul 2024 - cü il